# Əhli-Beytin Fəziləti

## MÜQƏDDİMƏ

«… **Ey ev-əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tər-təmiz** (pak) **etmək istər**» buyuran pak və nöqsansız, hər şeyə qadir, hər şeydə şəriksiz, ibadətə layiq haqq mə’bud olan Allaha həmd olsun! Allahın salamı və xeyir-duası: «***Ey insanlar! Mən ancaq bir bəşər övladı, Rəbbimin elçisiyəm. Allah qarşısında cavab verəcəyim və Onun yanın qayıdacağım gün yaxınlaşır. Sizə iki ağır şey tərk edirəm. Birincisi, Allahın hidayət və nur kitabı olan Qur’andır. İkincisi əhli-beytimdir. Əhli-beytim haqqında Allahdan qorxmağı, xəta etməməyi unutmayın***»-deyərək bunu üç dəfə təkrarlayan, peyğəmbərlərin sonuncusu və şərəflisi olan Məhəmmədə, onun ailəsinə, səhabələrinə və onların ardıcıllarına olsun!

Oxuculara təqdim olunan bu kitabçada sünnə əhlinin əqidəsində özünəməxsus yer tutmuş «Əhli-beytin fəziləti» mövzusuna toxunulmuşdur.

Kitabça hazırlanarkən «Əhli-beyt» məfhumunun ərəb dili baxımından hansı mə’nalarda işlədildiyi ilə bağlı dilçi alimlərin tədqiqatlarından, bu məfhuma kimlərin daxil olması haqqında rə’ylərindən istifadə edilmişdir. «Əhli-beyt» məfhumunun mə’nası araşdırılarkən Allahın Qur’anda xatırlatdığı digər peyğəmbərlərlə bağlı

(İbrahim, Musa(Onlara Allahın salamı olsun)) qissələrindən istifadə olunmuş və bununla «Əhli-beyt» məfhumunun daha geniş mə'nada başa düşülməsinin zəruriliyi bildirilmişdir. Daha sonra bu məfhuma daxil olanların ümumilikdə və ayrı-ayrılıqda fəzilətlərindən bəhs edilmişdir. Bu zaman Qur'ani Kərimə və peyğəmbərdən rəvayət olunmuş səhih hədislərə istinad edilmişdir.

Mövzunun əhəmiyyətini nəzərə alıb qısa şəkildə «Əhli-beytin fəziləti» haqqında sünnə əhlinin əqidəsi barədə risaləni toplayıb oxucuların ixtiyarına buraxdıq.

Allah-təaladan bu işi Öz mübarək simasına layiq, rizasına müvafiq və bəndələri üçün faydalı bilməsini rica edirik. Allah-təaladan rica edirik ki, Ona, peyğəmbərinə və peyğəmbərin ailəsinə olan sevgimizi daha da artırsın. Ona ibadətdə, Ona və Onun elçisinə itaətdə bizə yardım etsin, bizi həm bu dünyada, həm də axirətdə sabit söz sahibi etsin, bizi mükafatlandırsın. O, mükafatlar bəxş edəndir.

Mərhəmətli, Rəhmli Allahın adı ilə!

## ƏHLİ-BEYT KİMLƏRDİR?

Ərəb dili mütəxəssisləri və islam alimləri Əhli-beyt məfhumunun mə‘nasını geniş şəkildə şərh ediblər. Onlar yalnız dörd nəfərin – Əli, Fatimə, Həsən və Hüseynin (Allah onlardan razı olsun!) Əhli-beytdən olduğunu iddia edənlərin əksinə olaraq, bu məfhumun ən əvvəl peyğəmbərin (s.) həyat yoldaşlarını əhatə etdiyini bildiriblər. Əhli-beytin yalnız dörd nəfərdən ibarət olduğunu söyləmək dilçi alimlərin və din alimlərinin bu məsələ ilə bağlı söylədikləri fikirlərə, eləcə də Qur‘an və Sünnəyə ziddir.

İbn Faris «Məqayis əl-luğa» kitabında: «Ərəbcə *ət-təəhhul* sözünün evlənmək mə‘nasında işləndiyini, kişinin əhli onun arvadına və ona ən yaxın insanlara, evin əhli onun sakinlərinə, islam əhli onu qəbul edib Allah-təalanın qoyduğu qayda-qanunlara əməl edən insanlara» – deyildiyini bildirir.[1]

Dilçi alim ər-Rağib əl-İsfahaninin bu məsələyə münasibəti belədir: «Kişinin əhli onun qohumlarına və onunla eyni dində olan insanlara deyilir. Həmçinin bu, sənətləri eyni olan, bir evdə və ya ölkədə yaşayan insanlara da aiddir. Əslində isə kişinin əhli onunla bir yerdə yaşayan şəxslərdir. Sonralar bu mə'na daha da

[1] Ибн Фарис. «Мягайис ял-луьа», ж.1, сящ.150.

genişlənərək aralarında qohumluq əlaqəsi olan insanlara da şamil edilmişdir. Qeyd edək ki, Qur'anın «əl-Əhzab» surəsinin 33-cu ayəsinə görə Əhli-beyt deyildikdə peyğəmbərin ailəsi nəzərdə tutulur. Həmin ayədə deyilir:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ

عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا ﴿٣٣﴾

**"...Ey əhli-beyt! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz** (pak) **etmək istər"**

(«əl-Əhzab», 33).

Beləliklə, kişinin əhli dedikdə zövcəsi, islam əhli dedikdə isə onun qayda-qanunlarına əməl edən insanlar nəzərdə tutulur. Sonra o bildirir ki, ərəbcə, kişi evlənərsə ona ailə sahibi oldu deyilir və birinə Allah-təala səni Cənnətdə evləndirsin dedikdə həmin mə'na nəzərdə tutulur».[2]

İbn Manzurun «Lisən əl-arab» kitabında qeyd edilir ki, «Məzhəb əhli onun ardıcıllarına, islam əhli onun qayda-qanunlarına əməl edənlərə, əmr əhli hakimlərə, ev əhli onun sakinlərinə, kişinin əhli ona ən yaxın insanlara deyilir və Peyğəmbərin (s.) Əhli-beyti onun zövcələri, qızları və kürəkəni Əlidir. Peyğəmbərin Əhli-beytinin yalnız onun zövcələrindən ibarət olduğu da nəql edilmişdir. Sonra o bildirir ki, ərəb dilində «ət-

[2] Яр-Раьиб ял-Исфащани. «ял-Муфрадат фи ьариб ял-Гур'ан», сящ.29.

təəhhul» sözü evlənmək mə‘nasında işlədilir və arvadı, uşaqları olan kişiyə «əhil», evlənməyən şəxsə «azəb», kişiyə ən yaxın insanlara onun əhli, Allah-təalaya və peyğəmbərinə yaxın olan insanlara isə övliyalar deyilir».[3]

«Təc əl-arus» kitabında bu məsələ ilə bağlı deyilir ki, «Məzhəb əhli onu qəbul edib inanan insanlar, kişinin əhli zövcəsi və övladlarıdır. Qur’anın «əl-Qəsəs» surəsinin 29-cu ayəsində də həmin bu mə‘na nəzərdə tutulur. Bu ayədə belə qeyd olunur:

فَلَمَّا قَضَىٰ مُوسَى الْأَجَلَ وَسَارَ بِأَهْلِهِ

"**Musa** (onillik xidmət) **müddətini başa vurub ailəsi ilə birlikdə** (Misirə tərəf) **yola çıxdığı zaman Tur dağı tərəfdə bir od gördü...**".

(«Əl-Qəsəs», 29)

Ayədəki ailə sözü ilə Musa peyğəmbərin zövcəsinə işarə olunur. Məhəmməd peyğəmbərin əhli dedikdə də onun zövcələri, qızları və kürəkəni Əli (Allah ondan razı olsun!) qəsd olunur. Həmçinin onun əhlinin ona yaxın kişi qohumlarını, nəvələrini əhatə etdiyi də qeyd olunmuşdur. Aşağıdakı ayələrdə də yuxarıda qeyd etdiyimiz mə‘na nəzərdə tutulur. Allah-təala Qur’anda buyurur:

وَأْمُرْ أَهْلَكَ بِالصَّلٰوةِ وَاصْطَبِرْ عَلَيْهَا

[3] Ибн Манзур. «Лисян ял-араб», ж.11, с.29-30.

**«Əhlinə namaz qılmağı əmr et, özün də ona** (namaza) **səbrlə davam et»**

(«Taha», 132).

Digər Qur‘an ayəsində isə belə deyilir:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ

عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا ﴿٣٣﴾

**«…Ey Əhli-beyt! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz** (pak) **etmək istər»**

(«əl-Əhzab», 33).

Başqa bir ayədə Allah-təala buyurur:

رَحْمَتُ اللَّهِ وَبَرَكَاتُهُ عَلَيْكُمْ أَهْلَ الْبَيْتِ

**«… Ey ev əhli! Allahın mərhəməti və bərəkəti sizin üstünüzdə olsun…»**

(«Hud», 73).

Beləliklə hər peyğəmbərin əhli onun ümməti və millətidir. Allah-təala Qur’anda buyurur:

وَكَانَ يَأْمُرُ أَهْلَهُ بِالصَّلٰوةِ وَالزَّكٰوةِ

**«O öz ümmətinə namaz qılmağı, zəkat verməyi əmr edirdi…»**

(«Məryəm», 55).

Ayədə İsmayıl peyğəmbərdən bəhs edilir və oradakı «əhl» sözü yuxarıda qeyd etdiyimiz mə'nanı ifadə edir.

Həmçinin «əl-Misbah əl-munir» kitabında bu məsələ ilə bağlı deyilir: «Kişinin əhli onun qadınlarına, ev əhlinə və tərəfdarlarına deyilir».[4]

Bunun la da dilçi alimlərin qeyd etdiyi dəlillərdən peyğəmbərin (s.) Əhli-beyti dedikdə kimlərin nəzərdə tutulduğu bizə aydın oldu. Beləliklə, peyğəmbərin (s) Əhli-beytinə onun zövcələri, sonra uşaqları və qohumlar daxildir. Qur'anda bir neçə yerdə bu mə'naya işarə olunmuşdur. Allah-təala Qur'anda Xəlilullah İbrahim peyğəmbərin hekayətində mələklərin onun yanına müjdə ilə gəlməsindən bəhs edərkən buyurur:

وَامْرَأَتُهُ قَائِمَةٌ فَضَحِكَتْ فَبَشَّرْنَاهَا بِإِسْحَاقَ وَمِن وَرَاءِ إِسْحَاقَ يَعْقُوبَ
﴿٧١﴾ قَالَتْ يَا وَيْلَتَىٰ أَأَلِدُ وَأَنَا عَجُوزٌ وَهَٰذَا بَعْلِي شَيْخًا إِنَّ هَٰذَا لَشَيْءٌ
عَجِيبٌ ﴿٧٢﴾

«(İbrahimin) **arvadı** (Sara pərdə arxasında) **dur-muşdu** (və ya qonaqlara qulluq edirdi)**. O** (bu sözləri

---

[4] «Тяж ял-арус», ж.7, сящ. 217.

eşidib Lut tayfasının başına gələcək müsibətdən qafil olduğuna sevinərək və ya qoca yaşında oğlu olacağına təəccüblənərək) **güldü. Bundan sonra Biz onu İshaqla, İshaqın ardınca Yə'qubla** (İshaqın, ondan sonra Yə'qubun dünyaya gələcəyi ilə) **müjdələdik.** (İbrahimin arvadı) **dedi: "Vay halıma! Mən qoca bir qarı, bu ərim də ixtiyar bir kişi olduğu halda, mən necə doğa bilərəm?! Bu çox təəccüblü bir şeydir!"»**

(«Hud», 71-72).

Bu ayələrin davamı olan, yuxarıda göstərdiyimiz «Hud» surəsinin 73-cü ayəsində qeyd olunan Əhli-beyt ifadəsində də İbrahim peyğəmbərin (ə) zövcəsi nəzərdə tutulur. Həmçinin Allah-təala Qur'anda Musa peyğəmbər (ə) haqqında danışarkən buyurur:

فَلَمَّا قَضَىٰ مُوسَى الْأَجَلَ وَسَارَ بِأَهْلِهِ آنَسَ مِن جَانِبِ الطُّورِ نَارًا قَالَ
لِأَهْلِهِ امْكُثُوا إِنِّي آنَسْتُ نَارًا

«**Musa** (onillik xidmət) **müddətini başa vurub ailəsi ilə birlikdə** (Misirə tərəf) **yola çıxdığı zaman Tur dağı tərəfdə bir od gördü. O, ailəsinə dedi: "Siz** (mən qayıdanadək burada) **durun. Mən bir od gördüm…"»**

(«əl-Qəsəs», 29).

Bu ayədə də Əhli-beyt dedikdə Musa peyğəmbərin (ə) həyat yoldaşı nəzərdə tutulur. Çünki, həmin vaxt Musa peyğəmbərin (ə) yanında həyat yoldaşından başqa heç

kim yox idi. Bundan əlavə Qur’anda peyğəmbərin (s) zövcələrinə xitabən Əhli-beyt ifadəsi işlədilir. Allah-təala Qur’anda buyurur:

وَقَرْنَ فِى بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَىٰ وَأَقِمْنَ الصَّلَوٰةَ
وَآتِينَ الزَّكَوٰةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُۥٓ ۚ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ
الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا ﴿٣٣﴾ وَاذْكُرْنَ مَا يُتْلَىٰ فِى
بُيُوتِكُنَّ مِنْ آيَاتِ اللَّهِ وَالْحِكْمَةِ ۚ إِنَّ اللَّهَ كَانَ لَطِيفًا خَبِيرًا ﴿٣٤﴾

**«Evlərinizdə qərar tutun. İlkin Cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın.** (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!) **Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin. Siz ey** (Peyğəmbərin) **ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz** (pak) **etmək istər! Allahın evlərinizdə oxunan ayələrini** (Qur’anı) **və Hikməti** (Peyğəmbərin qoyduğu qayda-qanunu) **xatırlayın. Allah** (mö’minlərə) **lütfkardır,** (bəndələrinin bütün əməllərindən) **xəbərdardır!»**

(«əl-Əhzab», 33-34).

Qur’an elmləri haqqında azacıq mə’lumata malik olan insan ayədə qeyd olunan Əhli-beyt ifadəsinin peyğəmbərin (s) zövcələrinə aid olduğunu başa düşər. Çünki ayənin əvvəlindəki *"vaqarnə"* (evlərinizdə qərar

tutun) sözü, ondan əvvəl və sonra gələn ayələrin mö'minlərin analarına (Allah onlardan razı olsun!) xitabən deyildiyinə dəlalət edir.

Təfsir alimi əl-Qurtubi öz kitabında bu ayənin mə'nasını belə şərh edir: «Ayədən aydın olur ki, Əhli-beyt anlamı peyğəmbərin (s) zövcələrini və ona yaxın digər insanları əhatə edir. *"Yutahhirakum"* fe'linin kişi cinsində işlədilməsi peyğəmbərin (s), Əli, Həsən və Hüseynin Əhli-beytdən olmasından irəli gəlir. Çünki, ərəb dilində kişi və qadına birlikdə müraciət edildiyi zaman fe'l kişi cinsində işlədilir. Ayənin mə'nasından aydın olur ki, peyğəmbərin (s) zövcələri onun Əhli-beytindən sayılırlar. Ona görə ki, bu ayə onlar haqqında nazil olub və onlardan bəhs edir. Dediklərimizi ayənin mə'nası da təsdiqləyir!»[5]

Qur'anda buyrulan "əhli-beyt" kimdir məsələsində alimlər ixtilaf etmişlər:

1) İbn Abbas, İkrimə, Miqatil, Səid bin Cübeyr (Allah onlardan razı olsun!) kimi böyük səhabələrə görə əHli-beytə Peyğəmbərin (s.ə.v.) arvadları daxildir. Çünki «əl-Əhzab» surəsinin 28-34-cü ayələrində müraciət peyğəmbərin (s.ə.v.) arvadlarına edilir:

يَا أَيُّهَا النَّبِيُّ قُلْ لِأَزْوَاجِكَ إِنْ كُنْتُنَّ تُرِدْنَ الْحَيَوةَ الدُّنْيَا وَزِينَتَهَا
فَتَعَالَيْنَ أُمَتِّعْكُنَّ وَأُسَرِّحْكُنَّ سَرَاحًا جَمِيلًا ﴿٢٨﴾ وَإِنْ كُنْتُنَّ تُرِدْنَ اللَّهَ
وَرَسُولَهُ وَالدَّارَ الْآخِرَةَ فَإِنَّ اللَّهَ أَعَدَّ لِلْمُحْسِنَاتِ مِنْكُنَّ أَجْرًا عَظِيمًا
﴿٢٩﴾ يَا نِسَاءَ النَّبِيِّ مَنْ يَأْتِ مِنْكُنَّ بِفَاحِشَةٍ مُبَيِّنَةٍ يُضَاعَفْ لَهَا الْعَذَابُ

ضِعْفَيْنِ ۚ وَكَانَ ذَٰلِكَ عَلَى اللَّهِ يَسِيرًا ﴿٣٠﴾ وَمَن يَقْنُتْ مِنكُنَّ لِلَّهِ وَرَسُولِهِ
وَتَعْمَلْ صَالِحًا نُّؤْتِهَا أَجْرَهَا مَرَّتَيْنِ وَأَعْتَدْنَا لَهَا رِزْقًا كَرِيمًا ﴿٣١﴾

يَا نِسَاءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِّنَ النِّسَاءِ ۚ إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ
بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَّعْرُوفًا ﴿٣٢﴾
وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَىٰ ۖ وَأَقِمْنَ
الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ ۚ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ
عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا ﴿٣٣﴾ وَاذْكُرْنَ مَا يُتْلَىٰ
فِي بُيُوتِكُنَّ مِنْ آيَاتِ اللَّهِ وَالْحِكْمَةِ ۚ إِنَّ اللَّهَ كَانَ لَطِيفًا خَبِيرًا ﴿٣٤﴾

**"Ya Peyğəmbər! Arvadlarına belə de: "Əgər siz dünya həyatını və onun dəbdəbəsini istəyirsinizsə, gəlin sizə talaq haqqınızı verim və gözəl bir tərzdə boşayım! Yox, əgər Allahı, Onun Rəsulunu və axirət yurdunu istəyirsinizsə, Allah içərinizdən yaxşı işlər görənlər üçün**

**böyük bir mükafat hazırlamışdır. Siz ey peyğəmbərin arvadları! Sizdən hansı biriniz açıq-aşkar bir çirkin iş görsə, onun əzabı ikiqat olar. Bu, Allah üçün asandır! Sizdən hər kim Allaha və Rəsuluna itaət edib yaxşı işlər görsə, onun mükafatını ikiqat verərik. Biz onun üçün tükənməz gözəl və minnətsiz ruzi hazırlamışıq. Siz ey Peyğəmbərin arvadları! Allahdan qorxacağınız təqdirdə siz** (başqa) **qadınların heç biri kimi deyilsiniz. Buna görə də yad kişilərlə yumşaq danışmayın, yoxsa qəlbində mərəz** (şəkk, nifaq və günah mərəzi) **olan tamaha** (özgə təmənnaya) **düşər.** (Danışdığınız zaman) **gözəl danışın. Evlərinizdə qərar tutun. İlkin cahiliyyə dövründəki kimi açıq-saçıq olmayın. Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna èitaət edin. Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək etmək istər! Allahın evlərinizdə oxunan ayələrini və hikməti** (Peyğəmbərin qoyduğu qayda-qanunu) **xatırlayın. Allah** (**mö'minlərə**) **lütfkardır və xəbərdardır"** («əl-Əhzab», 28-34).

Bu ayələrdən görünür ki, "ev" deyildikdə Peyğəmbər və arvadlarının yaşadığı məskənlər nəzərdə tutulur və müraciət arvadlaradır.

2) Səhabələrdən Əbu Səid əl-Xudri, Mücahid, Qatadə isə ev-əhlinin Əli, Fatimə, Həsən və Hüseyn (Allah onlardan razı olsun!) olduğunu demişlər. Onların belə demələrinin dəlili "Siz ey ev əhli" ayəsində müraciət formasının ərəb dilinə görə zahirən qadınlara deyil, kişilərə olmasıdır.

Birinci rə’y tərəfdarları 2-cini belə rədd edirlər ki, müraciətin qadınlara deyil, kişilərə olması dəlil ola bilməz, çünki bu ərəb dilinin bəlağətindən irəli gəlir. Bə’zən təkə cəm kimi, ikiliyə cəm kimi, qadınlara bir nəfər kişi kimi və s. formalarda müraciət edilir. Və Qur’anda bunlara sübutlar var. Məsələn əl-Maidə surəsinin 6-cı ayəsində dirsək və əlin iki olmasına baxmayaraq, “iki dirsəyi” və “iki əlinizi” deyil, cəm formada “dirsəkləriniz də daxil olmaqla əllərinizi” yuyun deyilir. Hansı ki, ərəb dilində “iki dirsəyi” və “dirsəklərinizi”, “iki əlinizi” və “əllərinizi” sözlərinin müxtəlif deyiliş forması var. Eləcədə “topuqlar” sözü cəm formasında olmasına baxmayaraq, ayədə “iki topuq” kimi işlədilib. Həmçinin Qur’anda başqa yerdə – «Hud» surəsinin 72-73-cü ayəsində: “(İbrahimin arvadı): **“Vay halıma! Mən qoca bir qarı, bu ərim də ixtiyar bir kişi olduğu halda mən necə doğa bilərəm?! Bu çox təəccüblü bir şeydir!”** (Mələklər ona) **dedilər: “Allahın əmrinə təəccübmü edirsən? Ey ev əhli! Allahın bərəkəti və mərhəməti üstündə olsun...”** — deyilir. Burada da müraciət edilərkən, qadınlara xas olan “sizə” şəxs əvəzliyi kimi, “aleykunnə” əvəzinə “aleykum” — kişilərə müraciət forması işlədilir. Hətta ərəb dilində “keyfə əhlukə” (arvadın, ailən necədir?) sualına “hum bixeyr” (onlar yaxşıdır) kimi cavab verilir. “Hum” isə kişi cinsinə aid şəxs əvəzliyidir.

Deməli, Peyğəmbərin (s.ə.v.) arvadları əhli-beytə daxildirlər. Əgər müraciət forması kişilərədirsə, bəs Fatimə? Onda gərək Fatimə ev əhlinə daxil edilməsin.

Yox, əgər Fatimənin əhli-beytə daxil edilməsinə səbəb onu Peyğəmbər öz əbasının altına salmasıdırsa, onda yalnız əba altına salınan 4 nəfər — Əli,Fatimə,Həsən və Hüseyn (Allah onlardan razı olsun!) əhli-beytə daxildirlər. Bu da doğru deyil. Çünki əhli-beyt məfhumu geniş olub, ora çoxları daxildir.

Bu iki fikir arasındakı ixtilafların təfərrüatını araşdırmamaq üçün 3-cü orta bir fikir var ki, o da budur:

3). Qurtubi və İbn Kəsir kimi təfsir alimlərinə görə "Siz ey ev əhli" ayəsində zikr olunan "ev əhli"-nə həm Peyğəmbərin (s.ə.v.) arvadları, həm də Əli, Fatimə, Həsən və Hüseyn (Allah onların hamısından razı olsun!) aiddir. Çünki, İbn Abbas və başqalarının rəvayətləri də bildirir ki, Rəsulullahın (s.ə.v.) evində sakin olanlar onun arvadlarıdır və ayələrdə müraciət onlaradır. Digər tərəfdən Əli, Fatimə, Həsən və Hüseyn də (Allah onlardan razı olsun!) nəsəb və ailə baxımından əhli-beytə daxildirlər. Ayənin onların səbəbi ilə nazil olmasını bildirən rəvayətlər də bu fikirdə olmaq üçün dəlildir.

«Əl-Əhzab» surəsinin 30-cu ayəsində: **«Siz ey Peyğəmbərin zövcələri!...»,** 31-ci ayəsində: **«Sizdən hər kim...»,** 32-ci ayəsində: **«Siz ey Peyğəmbərin zövcələri!...»,** 33-cü ayəsində: **«Evlərinizdə qərar tutun...»**, 34-cü ayəsində: **«Allahın evlərinizdə oxunan ayələrini...»** kimi Peyğəmbərin zövcələrinə müraciət edildiyi halda, **«...Siz ey ev əhli!...»** hissəsini ayıraraq bunun Peyğəmbərin zövcələrinə aid olmadığını iddia etmək düzgün deyil.

Görkəmli islam alimi İbn əl-Qeyyim peyğəmbərin (s) zövcələrinə xitabən nazil olan yuxarıda qeyd etdiyimiz «əl-Əhzab» surəsinin 30-34-cü ayələrindən bəhs edərkən deyir: «Peyğəmbərin (s) zövcələri onun Əhli-beytindən sayılırlar. Bu ayələr onlar haqqında nazil olduğuna görə onları istisna etmək düzgün deyil. Daha doğrusunu Allah bilir».[6]

Həmin məsələyə təfsir alimi Hafiz İbn Kəsirin münasibəti isə belədir: "Əl-Əhzab surəsinin 33-cü ayəsi peyğəmbərin (s) zövcələrinin Əhli-beytdən olmalarına dəlalət edir. Bu ayə onların haqqında nazil olub və onun, peyğəmbərin (s) zövcələrini, eləcə də onlarla bərabər başqa insanları əhatə etməsi daha həqiqətə uyğundur". Sonra o deyir: "Qur'anı diqqətlə oxuyan şəxs «əl-Əhzab» surəsinin 33-cü ayəsində qeyd olunan Əhli-beyt ifadəsinin peyğəmbərin (s) zövcələrinə işarə etdiyinə şübhə etməz, çünki ayənin məzmunu buna dəlalət edir. Ona görə Allah-təala bütün bunlardan sonra buyurur:

**«Allahın evlərinizdə oxunan ayələrini** (Qur'anı) **və Hikməti** (Peyğəmbərin qoyduğu qayda-qanunu) **xatırlayın…»** («əl-Əhzab», 34).

Bu o deməkdir ki, ey peyğəmbərin (s) zövcələri, Allah-təalanın peyğəmbərinə (s) Qur'an ayələrini və Sünnəni sizin evinizdə nazil etdiyini bilin". Bu ayəni böyük alim Qatədə belə şərh edir: "Bütün insanlardan fərqli olaraq sizə verilən bu ne'məti xatırlayın. Çünki

---

[6] Ибн ял-Гейийм. «Жяля ял-яфщям фи яс-салят ва яс-сялям», сящ. 117.

vəhy başqa insanların yox, məhz sizin evdə nazil olurdu. Bu ne'mətə və rəhmətə ən çox layiq görülən qadın isə peyğəmbərin (s) zövcəsi Aişədir (r) ". Peyğəmbər (s) bildirib ki, zövcələri içərisində yalnız Aişə (r) ilə birlikdə olduğu zaman ona vəhy nazil olub. Bə'zi alimlər bunun Aişənin (r) peyğəmbərin (s) bakirə olaraq evləndiyi yeganə qadın olması və peyğəmbərdən (s) başqa heç kimlə bir yastığa baş qoymaması ilə bağlı olduğunu bildirirlər. O bütün bu xüsusiyyətlərə görə həmin şərəfə layiq görülüb və beləliklə, əgər peyğəmbərin (s) zövcələri Əhli-beytdən sayılırlarsa, onda onun qohumlarının bu adla çağırılmağa haqları daha çox çatır. Bu barədə peyğəmbər (s) hədislərindən birində buyurur: *«Ey Rəbbim! Bunlar mənim Əhli-beytimdir və Əhli-beytim daha haqlıdır!»*[7]

Məhəmməd peyğəmbər (s) kimlərin onun Əhli-beytindən olduğunu öz hədislərində bildirib. İmam Buxari Ənəs bin Malikə (r) istinadən peyğəmbərin (s) Zeynəb bint Cəhş (r) ilə evlənməsi hadisəsini rəvayət edib. Həmin hədisdə peyğəmbərin (s) Aişənin (r) otağına gəlib: *«Ey Əhli-beyt! Allahın rəhməti və salamı sizə olsun!»* – dediyi və Aişənin (r) ona: «Sənə də Allahın rəhməti və salamı olsun! Əhlin necədir? Allah mübarək etsin!» – deyə cavab verdiyi, sonra peyğəmbərin (s) bütün zövcələrinin otaqlarını gəzərək onlara eyni sözlərlə

---

[7] Ибн Кясир. «Тяфсир ял-Гур‘ан ял-азым», ж.5, сящ.452-458.

müraciət etdiyi və Aişənin (r) verdiyi cavabı təkrar etmələri qeyd olunur.[8]

Bununla peyğəmbər (s) zövcələrinin onun Əhli-beytindən olduqlarını bildirir. Bu barədə yalnız islam ümmətinin ən fəzilətli şəxsiyyətlərindən sayılan peyğəmbərin (s) səhabələrinə (Allah onlardan razı olsun!) qarşı ürəyi kinlə dolu olan şəxs mübahisə edə bilər.

Böyük alim İbn əl-Qeyyim alimlər arasında Əli-beyt ifadəsinin kimləri əhatə etməsi məsələsi ətrafında da fikir ayrılığının mövcud olduğunu qeyd edir. O, bu məsələ ilə bağlı dörd fikrin irəli sürüldüyünü bildirir:

Birincisi. Peyğəmbərin Əli-beyti sədəqə qəbul etmələri haram buyurulan şəxslərdir. Həmin şəxslərin kim olması ilə bağlı üç fikir söylənilmişdir:

1– Şafii məzhəbinə və İmam Əhməddən nəql edilən bir rəvayətə görə onlar Həşim və Müttalibin oğullarıdır.

2– İmam Əbu Hənifəyə və İmam Əhməddən nəql edilən digər bir rəvayətə görə peyğəmbərin (s) Əli-beyti yalnız Həşim oğullarıdır. Maliki məzhəbindən olan İbn əl-Qasimin də rə.yi belədir.

3– Əli-beyt Həşimin oğullarından başlayaraq Qalib oğullarına qədər olan bir nəsli əhatə edir. Beləliklə, Müttalibin, Ümeyyənin və Nofəlin oğulları da Əlibeytdən sayılırlar. Bu Maliki məzhəbindən olan Əşhəbin rə’yidir.

---

[8] Ял-Бухари, «ял-Жами. яс-Сащищ», ж.3, сящ.177.

Sonra o, Əli-beyt dedikdə sədəqə qəbul etmələri haram buyurulan şəxslərin nəzərdə tutulması fikrinin İmam Şafiiyə, Əhmədə və onların əksəriyyət təşkil edən yoldaşlarına mənsub olduğunu bildirir.

İkincisi. Peyğəmbərin (s) ailəsi onun övladları və zövcələridir. Bunu Abd əl-Bərr «ət-Təmhid» kitabında qeyd edir. O, kitabının Abdullah bin Əbu Bəkrdən bəhs edən hissəsində Əbi Həmid əs-Səidinin hədisini şərh edərkən bə'zi alimlərin peyğəmbərin (s) ailəsinin onun zövcələrindən və övladlarından ibarət olduğunu bildirdiklərini nəql edir. Çünki, Malikin Nəim əl-Mucmirdən rəvayət etdiyi hədisdə deyilir: «*Allahım! Məhəmmədə və onun ailəsinə xeyir-dua ver!*».[9] Əbu Həmid əs-Səidinin hədisində isə deyilir: «*Allahım! Məhəmmədə, zövcələrinə və övladlarına xeyir-dua ver*». Alimlər bu hədisin birinci qeyd etdiyimiz hədisi şərh etdiyini bildirirlər. Bu hədislərdən peyğəmbərin ailəsinin onun zövcələrindən və övladlarından ibarət olduğu aydın olur.

Üçüncüsü. Peyğəmbərin (s) ailəsi Qiyamət gününə qədər onun ardınca gedən insanlardır. Bunu İbn Abd əl-Bərr bə'zi alimlərdən rəvayət edib.

Dördüncüsü. Peyğəmbərin (s) ailəsi ümmətinin təqvalı insanlarıdır. Bu qazi Hüseyn və dilçi alim Rağibin rə'yidir.

Sonra o hər bir rə'yin müəllifinin istinad etdiyi dəlillərə toxunur və hansının səhih və ya zəif olduğunu

---

[9] Имам Малик. «Ял-Муватта», ж.1, сящ.165.

aydınlaşdıraraq, birinci rə'yin, ondan sonra isə ikinci rə'yin düzgün, üçüncü və dördüncü rə'yin isə zəif olduğunu bildirir. Çünki Məhəmməd peyğəmbər (s): *«Həqiqətən, sədəqə almaq Məhəmmədin ailəsinə yaraşmaz»*[10], *«Məhəmmədin ailəsi məhz bu maldan yeyər»*[11], *«Ey Allahım! Məhəmmədin ailəsinin ruzisini qut et»*[12] – hədisləri ilə onun ailəsi ilə bağlı şübhəni aradan qaldırmışdır. Beləliklə, bu hədislərdə qeyd olunan Məhəmmədin (s) ailəsi ifadəsi bütün islam ümmətini əhatə etmir. Həmçinin namazda dediyimiz «Əli-Məhəmməd» sözləri ilə hədislərdə oxuduğumuz «Əli-Məhəmməd» ifadəsinin mə'nası eynidir! Bu sözləri başqa cür şərh etmək düzgün deyil. Zövcələr və övladlar kəlməsinin ayrıca qeyd olunmasına gəldikdə isə, bu təkcə onların Əli-Beytdən olmalarına yox, əksinə, peyğəmbərin (s) ailəsinin təkcə onlardan ibarət olmadığına dəlalət edir. Çünki, Əbu Davud Nə'im əl-Mucmirə istinadən Əbu Hureyrənin peyğəmbərə (s) belə salavat etdiyini rəvayət edir: *«Ey Allahım! İbrahimə xeyir-dua verdiyin kimi Məhəmməd peyğəmbərə, onun mö'minlərin anaları olan zövcələrinə, övladlarına və Əhli-beytinə xeyir-dua ver»*.[13] Bu hədisdə zövcələr, övladlar və Əhli-beyt sözləri bir yerdə qeyd olunur. Bunun səbəbi onların həqiqətən peyğəmbərin (s) ailəsindən sayılmaları

---

[10] «Сящищ ял-Муслим», ж.3, сящ.753.
[11] «Сящищ ял-Бухари», ж.2, сящ.301.
[12] «Сящищ ял-Бухари», ж.4, сящ.123.
[13] Ибн ял-Геййим. «Жяля ял-яфщям фи яс-салат ва яс-сялям», сящ. 112.

və bu ada layiq görülməyə ən çox haqları çatan insan olmalarıdır.[14]

Böyük alim əş-Şaukəni də alimlər arasında ayədə qeyd olunan Əhli-beyt ifadəsinin kimləri əhatə etməsi məsələsi ətrafında fikir ayrılığının yarandığını qeyd edir. İbn Abbas, İkrimə, Ata, əl-Kəlbi, Muqatil və Səid bin Cübeyr həmin ayənin peyğəmbərin (s) zövcələrindən bəhs etdiyini və orada qeyd olunan evin peyğəmbərin (s) zövcələrinin yaşadığı ev olduğunu bildirmişlər. Onlar aşağıdakı ayələrə əsaslanaraq həmin fikirləri söyləmişlər:

**«Ya peyğəmbər! Zövcələrinə belə de:...»; «Allahın evlərinizdə oxunan ayələrini** (Qur'anı**) və Hikməti** (Peyğəmbərin qoyduğu qayda-qanunu) **xatırlayın. Allah** (mö'minlərə) **lütfkardır,** (bəndələrinin bütün əməllərindən) **xəbərdardır!»**

(«əl-Əhzab», 28, 34).[15]

Həmçinin Məhəmməd Abd ər-Rəhman əl-Mübarəkfuri şeyx Abd əl-Haqqın «əl-Ləməat» kitabında belə dediyini rəvayət edir: «Bilmək lazımdır ki, peyğəmbərin (s) Əhli-beyti sədəqə qəbul etmələri haram buyurulan şəxslərdir. Onlar Həşim oğullarıdır. Buraya Abbasın, Əlinin, Cəfərin, Aqilin və Harisin də ailələri daxildir. Bu ailələrin üzvlərinə sədəqə almaq haramdır. Həmçinin peyğəmbərin (s) zövcələri də onun Əhli-beytindəndirlər. Burada müraciət onlara edilib. Bu ayədə onları istisna etmək cümlələr arasında uyğunluğu pozur.

---

[14] Йеня орада.

[15] Яш-Шаукяни. «Фятщ ял-Гадир», ж.4, сящ.278.

Qeyd edək ki, təfsir alimi Razinin bu məsələyə münasibəti belədir: «Ayədə qeyd olunan Əhli-Beyt ifadəsi peyğəmbərin (s) zövcələrini də əhatə edir. Çünki ayələrin ardıcıl şəkildə gəlməsi buna dəlalət edir. Peyğəmbərin (s) zövcələrini istisna etmək və bu ayəni başqa insanlara şamil etmək düzgün deyil. Həmin ayədə müraciətin kişi cinsində edilməsi «*əhl*» sözünə və ya ərəb dilində kişi ilə qadına birlikdə müraciət edildiyi zaman kişi cinsinə üstünlük verilməsindən irəli gəlir. Əgər müraciət qadın cinsində olsaydı bu ayə təkcə peyğəmbərin (s) zövcələrinə aid olar və Fatimə (r) Əhli-beytdən sayılmazdı. Əslində isə alimlər onun Əhli-beytdən olması məsələsi ətrafında yekdil fikirdədirlər.

Beləliklə yuxarıda qeyd etdiklərimiz fikirlərdən belə nəticəyə gəlmək olar ki, Məhəmməd peyğəmbərin (s) zövcələri onun Əhli-beytindəndirlər. Bu Əhl əs-Sünnə və-l-cəmaənin əqidəsidir və hər bir müsəlmanın əqidəsi belə olmalıdır. Sonda qeyd edək ki, Peyğəmbərin (s) Əhli-beyti onun zövcələri, övladları, əmiləri və onların oğullarıdır.

## ƏHLİ-BEYTİN FƏZİLƏTİ

1. Abdullah bin Abbasa (r) istinadən Peyğəmbərin (s) belə dediyi rəvayət olunur: *"Sizə verdiyi ruziyə görə Allahı sevin. Allahı sevdiyiniz üçün məni, məni sevdiyiniz üçün isə*

*Əhli-beytimi sevin"* (ət-Tirmizi, Mənaqib 4042, hədis həsən, qəribdir).

Bizi yaratdığına və bəxş etdiyi bütün ne'mətlərə görə Allahı sevməliyik. Allahı sevdiyimiz üçün də Onun peyğəmbərini və ailəsini sevməliyik.

2. Sə'd bin Əbu Vaqqas (r) rəvayət edir ki,

فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَآءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ
نَدْعُ أَبْنَآءَنَا وَأَبْنَآءَكُمْ وَنِسَآءَنَا وَنِسَآءَكُمْ وَأَنفُسَنَا وَأَنفُسَكُمْ

**«Sənə göndərilən elmdən sonra buna dair səninlə mübahisə edənlər olsa, onlara de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü çağıraq!"»** («Ali-İmran», 61) ayəsi nazil olanda, Rəsulullah (s) Əlini, Fatiməni, Həsən və Hüseyni (r) yanına çağırdı və: *"Allahım, bunlar mənim ailəmdir"* – buyurdu. (ət-Tirmizi, Təfsir «Ali-İmran», 3002).[16]

3. Ummu Sələmə (r) rəvayət edir ki, "Mən Rəsulullahın (s) evinin qapısının ağzında oturduğum zaman bu ayə nazil oldu: **"... Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz** (pak) **etmək istər!"** («əl-Əhzab», 33). Evdə Rəsulullah (s), Əli, Fatimə, Həsən və Hüseyn var idi. Rəsulullah (s) onları örtüklə bürüdü və: *"Allahım,*

[16] Əlbani, 3197; 2398. İsnadı səhihdir.

*bunlar mənim Əhli-beytimdir, bunlardan çirkinliyi yox et və bunları təmizlə"* – dedi. Mən dedim: "Ya Rəsulallah, mən Əhli-beytdən deyiləmmi?" Dedi: *"Sən onsuz da xeyir içindəsən. Sən Peyğəmbərin zövcələrindənsən"* (ət-Tirmizi, Mənaqib, 3870).

Hədisdəki incə məsələ Rəsulullahın (s) Ummu Sələməyə "Sən onsuz da xeyir içindəsən. Sən Peyğəmbərin zövcəsisən" – deməsidir. Bunu iki cür şərh etmək olar:

1-ci mə'na: "Sən onsuz da xeyir içindəsən. Mənim Əhli-beytimdən olduğuna görə, örtüyün altına girməyinə ehtiyac yoxdur". Onun örtüyün altına salınmasının qarşısını alan Əlinin (r) örtüyün altında olmasıdır.

2-ci mə'na: "Sən Əhli-beytimdən olmasan da xeyir içindəsən". Çünki o, Peyğəmbərin (s) zövcələrindəndir.

Alimlərin fikrinə görə birinci mə'na daha düzgündür. Çünki digər rəvayətlərdə peyğəmbərin qadınlarının onun Əhli-beytindən olduqları bildirilir. Doğrusunu Allah bilir.

4. Ənəs bin Malik (r) rəvayət edir ki, **"Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz** (pak) **etmək istər!"** («əl-Əhzab», 33) ayəsi nazil olandan sonra Rəsulullah (s) altı aya yaxın bir müddətdə hər namaza gedərkən Fatimənin (r) otağının qarşısından keçdikdə: *"Namaza gəlin, ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!"* — deyərdi". (ət-Tirmizi, Təfsir «əl-Əhzab», 3204).

5. Aişə (r) rəvayət edir ki, "Rəsulullah (s) üzərində qara naxışlı bir parça olduğu halda mənim yanıma gəldi. Bu zaman Həsən də gəldi. Onu örtüyün altına saldı, sonra

Hüseyn gəldi, onu da saldı, sonra Fatimə gəldi, onu da saldı. Sonra Əli gəldi, onu da saldı. Sonra dedi: **"Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz** (pak) **etmək istər"** («əl-Əhzab», 33). (Müslim, Fadailus-səhabə, 61/2424).

6. Yezid bin Həyyan rəvayət edir ki, "Bir gün Hüseyn bin Səbrə və Amr bin Muslim ilə birlikdə Zeyd bin Ərqamın (r) yanına getmişdik. Oturarkən Hüseyn, Zeyd bin Ərqama belə dedi: "Ey Zeyd, sən çox xeyirlə qarşılaşdın. Rəsulullahı (s) gördün, eşitdin, birlikdə döyüşlərdə oldun və arxasında namaz qıldın. Beləcə neçə xeyirli işlər sənə nəsib oldu. Rəsulullahdan (s) eşitdiklərindən bizə danış. Zeyd dedi: "Ey qardaşımın oğlu, vallahi yaşlandım, aradan çox il keçib, Rəsulullahdan (s) eşitdiklərimdən bə'zilərini unutmuşam. İndi rəvayət edəcəklərimi qəbul edin, susanda danışmağa məcbur etməyin:

– Məkkə və Mədinə arasında "Xum" adlanan yerdə Rəsulullah (s) bir bulaq başında xütbə verdi. Allaha həmd-səna etdikdən sonra belə buyurdu: *"Ey insanlar! Mən ancaq bir bəşər övladı, Rəbbimin elçisiyəm. Allah qarşısında cavab verəcəyim və Onun yanına qayıdacağım gün yaxınlaşır. Sizə iki ağır şey tərk edirəm. Birincisi, Allahın hidayət və nur kitabı olan Qur'andır. Allahın kitabını tutun və ondan möhkəm yapışın"*. Qur'an haqqında tə'siredici sözlər söylədikdən sonra dedi: *"İkincisi Əhli-beytimdir. Əhli-beytim haqqında Allahdan qorxmağı, xəta etməməyi unutmayın"* – deyərək bunu 3 dəfə təkrarladı.

Hüseyn: "Ey Zeyd, peyğəmbərin Əhli-beyti kimdir? Onun zövcələri Əhli-beytdən deyilmi?" – deyərək soruşdu. Zeyd dedi: "Peyğəmbərin qadınları da Əhli-beytdəndir. Həmçinin Əhli-beyt sədəqə almaları haram buyurulan şəxslərdir" – dedi. "Onlar kimdir?" – deyə soruşulanda Zeyd dedi: "Əhli-beyt Əlinin, Aqilin, Cə'fərin, Abbasın ailəsidir". Hüseyn: "Onların hamısına sədəqə almaq haramdır?" – deyə soruşanda, Zeyd: "Bəli" – dedi. (Müslim, Fadailus- səhabə, 2408).

Hədisi rəvayət edən Yezid bin Həyyan güvənilmiş rəvayətçidir. Orta yaşlı tabiinlərdən – səhabələri görənlərdəndir.

Zeyd bin Ərqam Rəsulullahla (s) 17 döyüşdə iştirak edib. Peyğəmbərdən 70 hədis rəvayət edib, hicrətin 56-cı ilində Kufədə vəfat edib.

Hədisdə "sədəqə" sözü zəkat mə'nasında işlənib. Bu hədis başqa rəvayətdə belədir:

7. Yezid bin Həyyan, Zeyd bin Ərqamdan (r) rəvayət edir ki, Rəsulullah buyurmuşdur: *"Xəbəriniz olsun! Mən sizə iki ağır şey tərk edirəm: bunlardan birincisi Allah-təalanın Kitabıdır. O, Allahın ipidir. Kim ondan bərk yapışsa, Allaha tabe olsa, o , doğru yoldadır. Kim onu tərk etsə, düz yoldan çıxmış olar. İkincisi isə itrətim, Əhli-beytimdir"*. Biz soruşduq: "Peyğəmbərin qadınları onun Əhli-beytindəndirlərmi?" Dedi: "Xeyr. Allaha and olsun ki, qadın əri ilə bir müddət bərabər olur. Boşandıqda o atasının yanına, öz qövmünə qayıdır. Rəsulullahın Əhli-beyti, nəslindən olub özündən

sonra sədəqə almaları haram olan, ata tərəfdən qohum olan insanlardır". (Müslim, Fadailus-səhabə, 2408).

Sual verilə bilər ki, peyğəmbər (s) öz əbası ilə təkcə Əli, Fatimə, Həsən və Hüseyni (r) örtmüşdüsə, sonrakı nəsil peyğəmbərin vaxtında yaşamadığı və həmin hadisədə (əba altına salınma) iştirak etmədiyi halda Əhli-beytə necə daxil edilib? Bunu belə izah etmək olar ki, peyğəmbərin (s) öz əbasının altına yalnız Əli, fatimə, Həsən və Hüseyni (r) salmasına baxmayaraq sonrakı nəsillərin də Əhli-beytə aid edilməsinin səbəbi onların Əlinin ailəsi və ata tərəfdən peyğəmbərə yaxın olmalarıdır. Bu onu göstərir ki, Əhli-beytə yalnız Əli, Fatimə, Həsən və Hüseyn (r) daxil deyil.

Hədisdə peyğəmbərin (s) bizə tərk etdiyi ikinci əmanət onun Əhli-beytidir. Hədis müsəlmanlardan peyğəmbərin (s) Əhli-beytini zəkat malı alan insanların vəziyyətinə salmamağı tələb edir.

8. İbn Ömər (r) Əbu Bəkrin (r) belə dediyini rəvayət edir: "Məhəmmədə Əhli-beytinin içində hörmət edin" (Buxari, Kitabul-fadail-əshab 12/60, 24/91).

Əbu Bəkr (r) insanlara bu cür müraciət edərək onları Rəsulullahın (r) Əhli-beytinə hörmət etməyə çağırmışdır. Hədisdə, Rəsulullahın əhli-beytinə hörmətə, sevgiyə, əhli-beytini ucaltmağa işarə edilir. Bu "Əhli-beytə əziyyət verməyin, pis söz deməyin" deməkdir.

Ev sahibini sevən o evin ailə üzvlərini də sevməlidir. Ailə üzvlərinə edilən əziyyətin o ev sahibini narahat edəcəyini düşünmək lazımdır. Şübhə yoxdur ki, ailə üzvləri ilə yaxşı münasibətdə olmaq, ailə başçısını

məmnun edər. Buna görə də hamı peyğəmbərin (s) Əhli-beytini sevməli və onlar haqqında yaxşılıqdan başqa bir şey düşünməməlidir. İlk müsəlmanların tövsiyyələri belə olmuşdur.

Allah bizi onların sevgisi ilə yaşatsın və öldürsün və bizi onlarla birlikdə diriltsin! Amin!

## Əli bin Əbu Talibin (r) fəziləti

1. Ənəs bin Malik (r) rəvayət edir ki, "Rəsulullah (s) bazar ertəsi günü peyğəmbər göndərildi, Əli (r) çərşənbə axşamı günü namaz qıldı" (ət-Tirmizi, Mənaqib, 3976, hədis qəribdir).

Bə'zi alimlər bu hədisə əsaslanaraq Əlinin (r) gənclərdən ilk müsəlman olduğunu söyləyirlər.

2. Abdullah bin Ömər (r) rəvayət edir ki, "Rəsulullah (s) səhabələri bir-biri ilə qardaş etdi. Əli (r) onun yanına gəldi və dedi: "Səhabələri bir-biri ilə qardaş etdin, amma məni heç kimlə qardaş etmədin". Rəsulullah (s) dedi: *"Sən mənim həm bu dünyada, həm də axirətdə qardaşımsan"* (ət-Tirmizi, Mənaqib, 3722).

3. Zeyd bin Ərqam (r) rəvayət edir ki, "Rəsulullah (s) demişdir: *"Mən kimin dostuyamsa, Əli də onun dostudur"* (ət-Tirmizi, Mənaqib, 3714).

4. Sə'd bin Əbu Vaqqas (r) rəvayət edir ki, "Rəsulullah (s) Təbuk döyüşünə gedərkən Əlini arxada (Mədinədə) saxlamışdı. Əli (r) soruşdu: "Ey Allahın Rəsulu, məni

qadın və uşaqların yanında saxlayırsan?" Rəsulullah cavab verdi: *"Sən Harunun Musa yanında aldığı yeri mənim yanımda almaqdan razı deyilsən? Bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur"* (Buxari; Kitabul-məğazi 80/409, Fadail-əshab 9/54, Müslim, Fadail-əshab, 31 (2404), ət-Tirmizi, Mənaqib, 3731).

5. Müslim və Tirmizinin rəvayətlərində deyilir:

"Rəsulullah (s) Xeybər günü dedi: *"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, O, Allahı və Rəsulunu sevir, Allah və Rəsulu da onu sevir"*. Bu sözə görə adamların çoxu boyunlarını irəli uzadırdılar ki, Rəsulullah onları görsün. Amma o dedi: *"Əlini yanıma gətirin"*. Əlini gətirdilər, onun gözləri ağrıyırdı. Peyğəmbər onun gözlərinə üfürdü və bayrağı ona verdi. Allah onun əliylə fəthi müyəssər etdi". Rəvayəti edən daha sonra deyir ki: **"... gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı..."** (Ali-İmran, 61) ayəsi nazil olduğu zaman Rəsulullah (s) Əlini, Fatiməni, Həsən və Hüseyni (r) yanına çağırdı və: *"Allahım bunlar mənim ailəmdir!"* – buyurdu" (Buxari, Kitabul-məğazi, 4/231, Müslim, Fadailus-səhabə 32, (2404), ət-Tirmizi, Mənaqib, 3726).

Hədisin birinci hissəsində Xeybərin fəthində Əlinin fəziləti qeyd edilir. Peyğəmbərin buyurduğu kimi Əli:

- Allah və Rəsulunu sevir
- Allah və Rəsulu da onu sevir. Bu böyük müjdədir.

Rəsulullahın (s) belə məqamda şəhadəti insan üçün dünyada əldə edə biləcəyi ən böyük ne'mətlərdən biridir.

- Xeybərin fəthi Əlinin (r) əliylə müyəssər olmuşdur. Bu döyüş ərəfəsində bayrağın Əliyə verilməsi səhabələrin gözündə mühüm hadisə idi. Çünki bu, Allah və Rəsulunun Əlini sevdiyinə sübut idi. Dünya səadətindən xeyirli olan bu məqama çatmaq ümidi ilə hər kəs boynunu irəli uzatmış və peyğəmbərin (s) onu görməsini istəmişdi. Hətta Ömər bin Xəttabın (r) belə dediyi rəvayət olunur: "Heç vaxt döyüşə rəhbərlik etməyi arzulamadığım halda, o gün "nə olardı, Rəsulullah (s) bayrağı mənə verərdi" ümidi ilə onun məni görməsi üçün başımı irəli uzatdım".

Hədisin ikinci hissəsində Əlinin başqa fəziləti göstərilir: Əli və ailəsi Peyğəmbərin (s) ailəsindəndir.

6. Zirr bin Hübeyşi Əlidən (r) belə eşitdiyini rəvayət edir: "Toxumu çatladan və canlıları yaradana and olsun ki, ummi peyğəmbər (s) mənə mö'minin məni sevəcəyinə, münafiqin məndən üz çevirəcəyini əhd etdi" (Müslim, İman 131, (78); ət-Tirmizi, Mənaqib, 3737; Nəsai, İman, 20, (8, 117).

"Toxumu çatladan" – toxumları cücərdən deməkdir. Hər gün seyr etdiyimiz bu hadisə bizə adi bir hal kimi görünür. Əslində bu bir mö'cüzədir. Bəsit bir dən torpağa düşdükdə ondan gövdə, yarpaq, çiçək, meyvə, rəng, qoxu, dad və s. əmələ gəlir. Bunlar "dənin açılması"nın nəticəsidir. Buna görə Əli (r) hadisənin sahibi Allaha and içməklə sözə başlayır. Çünki Allah əl-Ən'am surəsinin 95-ci ayəsində **"Şübhəsiz ki, toxumu da, çərdəyi də cücərdib çatladan, ölüdən diri, diridən ölü çıxardan"** kimi tanıdılır.

"Ummi" – anaya mənsubluğu bildirir. Bununla yazıb-oxumağı bilməmək nəzərdə tutulur. Çünki insan anadan olanda yazıb-oxumağı bacarmır. Bu Qur'anda belə bildirilir: **"Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz halda çıxartdı"** («ən-Nəhl», 78).

Rəsulullahın (s) "ummi" olmasına baxmayaraq, ona Qur'an kimi kitabın nazil olması, onun keçmiş və gələcəkdən, kainatın mahiyyəti haqqında doğru, dəyişməz xəbərlər verməsi onun ən böyük mö'cüzələridir.

Hədis belə də rəvayət olunur: "Mö'min məni sevər, münafiq məni sevməz".

7. Cabir bin Abdullah (r) rəvayət edir ki, "Taif günü Rəsulullah (s) Əlini çağırdı və onunla xüsusi görüşdü. Görüşün uzun çəkdiyinə görə adamlar: "Rəsulullah (s) əmisi oğlu ilə görüşməsini uzatdı" – dedilər. Bunu duyan peyğəmbər (s) buyurdu: *"Onunla xüsusi görüşü mən* (öz arzumla) *etmədim, Allah etdi"* (ət-Tirmizi; Mənaqib, 3728).

Taif səfəri zamanı peyğəmbərin (s) Əli (r) ilə görüşü o qədər uzandı ki, adamların bə'ziləri: "Əmisi oğlu ilə söhbəti uzatdı" – dedilər. Bu sözlərin dedi-qodu niyyəti ilə və ya düşüncələrini "çəkinmədən səmimi şəkildə söyləmə tərbiyəsi" niyyəti ilə də deyildiyini izah etmək olar. Doğrusunu Allah bilir. Lakin hansı niyyətlə deyilməsindən asılı olmayaraq peyğəmbər (s) məsələni aydınlaşdırmışdır. O, bu zaman **"Kafirləri siz öldürmədiniz, Allah öldürdü.** (Düşmənlərin gözünə bir ovuc torpaq) **atdığın zaman sən atmadın, Allah atdı"** («əl-

Ənfal» surəsi, 17) ayəsinə uyğun üslubdan istifadə etmişdir.

8. Ənəs (r) rəvayət edir ki, "Rəsulullah (s) Bəraət (ət-Tövbə) surəsini (Ərəfatda həcc ziyarətinə gələnlərə təbliğ etmək üçün) Əbu Bəkrə (r) göndərmişdi. Sonra onu çağıraraq: *"Bunun, ailəmdən olmayan bir kimsə ilə təbliğ edilməsi uyğun deyil"* – buyurdu. Sonra Əlini (r) çağıraraq surəni ona verdi" (ət-Tirmizi; Təfsir, «ət-Tövbə», 3089).

Alimlərin fikrinə görə Əbu Bəkrdən (Alah ondan razı olsun!) sonra Əlinin (r) göndərilməsi ərəblərin adətindən irəli gəlir. Bu adətə görə, müqaviləni ancaq onu bağlayan kimsə və ya ailəsindən olan başqa bir şəxs poza bilər. Buna görə Peyğəmbər (s) belə etmişdir.

Surənin ilk ayələrində müsəlmanların müşriklərlə müqavilə bağlamalarından söhbət getdiyini də nəzərə alsaq bunu belə izah etmək olar. Doğrusunu Allah bilir.

9. Əbu Həzim Sələmə bin Dinardan rəvayət edir ki, "Bir nəfər Səhl bin Sə'din (r) yanına gəlir və: "Mədinə əmiri filankəs minbərin yanında Əli haqqında danışır" – deyir. Səhl: "Bu əmir Əli haqqında nə deyir?" – deyə soruşur. Əbu Həzim: "Əmir Əliyə Əbu Turab deyir" – dedikdə, Səhl ibn Sə'd güldü və: "Allaha and olsun, Əliyə bu ləqəbi Peyğəmbər vermişdir və Əlinin ən çox bu ad xoşuna gəlirdi" – dedi. Əbu Həzim dedi: "Mən bu ləqəbi peyğəmbərin Əliyə necə verdiyini öyrənməklə ləzzət almaq istədim və Səhl ibn Sə'ddən soruşdum: "Ey Əbu Abbas, bu necə olub?" O dedi: "Bir dəfə Əli Fatimənin yanına girmiş və sonra çıxaraq məsciddə yatmışdı. Bu vaxt

Peyğəmbər gəlib: *"Əmioğlum haradadır?"* – deyə soruşdu. Fatimə: "Məsciddədir" – dedi. Peyğəmbər məscidə getdi və Əlinin kürəyi torpağa batmış halda yatdığını gördü. Peyğəmbər Əlinin kürəyindən torpaqları təmizləyərək: *"Otur, ey Əbu Turab! Otur, ey Əbu Turab!"* – dedi. (Buxari; Kitabul-fadail-əshab 9/51).

10. Sə'd bin Übeydə demişdir: "Ömərin oğlunun (ibn Ömərin) yanına bir adam gəldi və Osman haqqında soruşdu. İbn Ömər Osmanın yaxşı xüsusiyyətlərindən danışdı və o adama: "Bəlkə Osman haqqında dediklərim sənə pis gəlir?" – deyə soruşdu. Həmin adam: "Bəli" – deyə cavab verdi. İbn Ömər: "Allah sənin burnunu yerə sürtsün!" – dedi. Sonra o adam İbn Ömərdən Əli haqqında soruşdu. İbn Ömər Əlinin gözəl əməllərindən danışdı və: "Əli budur. Evi də peyğəmbərin (s) evlərinin ən gözəlidir" – dedi. Sonra yenə: "Bəlkə, Əli haqqında danışdıqlarım sənə pis gəlir?" – deyə soruşdu. O adam: "Bəli" – dedi. İbn Ömər ona: "Allah sənin burnunu torpağa sürtsün! Get, mənim barəmdə nə bacarırsan et!" – dedi" (Buxari; Kitabul- fadail əshab 9/52).

## Abbas bin Abdul-Muttalibin (r) fəziləti

1. Həzrət Əli (r) Rəsulullahın (s) belə dediyini rəvayət edir: *"Kim əmimə əziyyət verərsə mənə əziyyət vermiş olar, çünki adamın əmisi ona atası yerindədir"* (ət-Tirmizi,"Mənaqib", 3764; Əhməd, "Müsnəd", 4/165;

Hakim, "Müstədrək", 3/333. Ət-Tirmizi: "Bu həsən və səhih hədisdir" – demişdir).

2. Abdullah bin Abbas (r) Rəsulullahın (s) onun atası Abbasa belə dediyini rəvayət edir: *"Ey əmi, bazar ertəsi sabahı sən və oğlun yanıma gəlin, sizə dua edim. Allah bu dua ilə sənə və oğluna xeyir versin"*. Atamla Rəsulullahın (s) yanına getdik. O, bizi örtüyə bürüdü və dua etdi: *"Allahım! Abbası və oğlunu bağışla. Elə bağışla ki, zahiri və batini günahları təmizlənsin, heç bir günahı qalmasın! Allahım, onu oğluna görə hifz et"* (ət-Tirmizi; Mənaqib, 3766).

Bu hədislər Abbasın (r) fəzilətinə dəlildir. Abbas (r) peyğəmbərin (s) əmisi olub, ondan 2 və ya 3 yaş böyük idi. Ləqəbi Əbu Fadldır. Məşhur bir rəvayətə görə islamı Məkkənin fəthindən sonra qəbul edib. Bə'ziləri hicrətdən əvvəl müsəlman olduğunu, ancaq bunu gizlətdiyini, Məkkədə qalıb müşriklərlə bağlı xəbərləri Rəsulullaha (s) yazdığını deyirlər. Arada hicrət etmək üçün icazə istəmiş və peyğəmbər (s): *"Sənin Məkkədə qalmağın daha xeyirlidir"* – deyərək icazə verməmiş və hətta Bədr döyüşündə *"Abbasla rastlaşsanız onu öldürməkdən çəkinin"* – əmrini vermişdir. Peyğəmbər (s) Abbasa (r): *"Mən peyğəmbərlərin sonuncusu olduğum kimi, sən də mühacirlərin sonuncususan"* – demişdir.

Abbas (r) Məkkənin varlılarından olub, 70 nəfər kölə azad etmişdir.

Onun qızlarından əlavə 10 oğlu olub. Hicrətin 32-ci ilində Mədinədə Osmanın (r) şəhid edilməsindən iki il

əvvəl – 88 yaşında vəfat edib. Cənazə namazını Osman (r) qıldırıb.

3. Ənəs bin Malikdən (r) rəvayət edilir ki, aclıq illərində Ömər bin əl-Xəttab yağış yağdırmaq üçün Allaha Abbas bin Abd əl-Muttaliblə təvəssül edərək belə dua edərdi: "Ey Allah, biz peyğəmbərin (r) sağlığında onunla təvəssül edərək dua edirdik, indi isə peyğəmbərimizin əmisi ilə təvəssül edirik ki, bizə yağış yağdırasan!" Ənəs (r) deyir ki, Allah da yağış yağdırırdı. (Buxari; Kitabul-fadail-əshab, 11/58).

**Abdullah bin Abbasın (r) fəziləti**

1. İbn Abbas (r) rəvayət edir ki, "Rəsulullah (s) məni qucaqladı və: *"Allahım, bunu dində fəqih (alim) et!"* – deyə dua etdi". Bir rəvayətdə: *"Allahım, ona Kitabı öyrət!"*, başqa bir rəvayətdə: *"Allahım, ona hikməti öyrət!"* – dediyi qeyd olunur. (Buxari, "Kitabul-fadail əshab", 26/96, 97, "Kitabul-elm", 18/17; Müslim, "Fadailus-səhabə", 138 (2477); ət-Tirmizi, "Mənaqib", 3823, 3824).

Abdullah bin Abbas (r) peyğəmbərin (s) əmisi oğludur. Hicrətdən 3 il əvvəl Məkkədə anadan olub. Hicrətin 68-cı ilində Taifdə vəfat etmiş, cənazə namazını Əlinin (r) oğlu Məhəmməd bin Hənəfiyyə qaldırmış və: "Bu gün islam ümmətinin böyük tərbiyəçisi ölmüşdür" – demişdir.

Peyğəmbərin etdiyi dua nəticəsində Abdullah bin Abbas (r) islami elmlərin hamısında (təfsir, fiqh) ən yüksək

zirvəyə qalxmış, “rəisul-mufəssirin” (Təfsirçilərin rəisi), “tərcumanul-Qur’an”, “hibrul-ummə” kimi ləqəblərlə tanınmışdır.

**Cə’fər bin Əbu Talib (r) fəziləti**

1. Əbu Hureyrə (r) peyğəmbərin (s) belə dediyini rəvayət edir: *“Cə’fəri Cənnətdə mələklərlə birlikdə uçan gördüm”* (ət-Tirmizi, “Mənaqib”, 3767).

2. Əş-Şə’bi (r) rəvayət edir ki, İbn Ömər (r) Cə’fərin (r) oğlu Abdullaha salam verərkən: “Sənə salam olsun, ey iki qanadlı adamın oğlu!” – deyərdi. (Buxari, “Kitabul-fadail əshab”, 10/57).

3. Əbu Hureyrənin (r) belə dediyi rəvayət olunur: “İnsanlar: “Əbu Hureyrə çox hədis rəvayət edir” – deyirlər. Halbuki mən qarnımın doyması müqabilində Rəsulullahdan (s) ayrılmazdım. Hətta mən maya vurulmuş çörək yeməzdim, təzə və gözəl paltar geyinməzdim. Mənə heç bir kişi və qadın xidmət etməmişdir. Mən aclıqdan qarnıma daş bağlayardım. Halımı başa düşərlər ümidi ilə mən əzbər bildiyim ayələri bir kimsəyə—o məni evinə aparsın, məni doyursun məqsədi ilə oxumaq istəyirdim. Fağırlar, miskinlər, kasıblar üçün insanların ən xeyirlisi Cə’fər bin Əbu Talib idi. O bizi evinə aparar, evində olanlardan bizi yedirərdi. Hətta bə’zən içi boşalmış yağ qabını verirdi, biz də onu kəsər və içində qalan yağ qırıntılarını yalayardıq” (Buxari, “Kitabul-fadail əshab”, 10/56; Tirmizi, “Mənaqib”, 3770).

4. Əl-Bəra (r) Rəsulullahın (s) Cə'fərə (r) belə dediyini rəvayət edir: *"Əxlaq və yaradılış baxımından sən mənə oxşayırsan"* (Buxari, "Kitabus- sülh", 6/9, "Kitabul-məğazi", 45/263; Müslim, "Cihad", 90 (178); ət-Tirmizi, "Mənaqib", 3769).

Bu hədislər Cə'fər bin Əbu Talibin (r) fəzilətinə dəlalət edir.

İlk müsəlmanlardan sayılan Cə'fər bin Əbu Talib (r) Əlidən (r) 10 yaş böyük və onun doğma qardaşıdır. Həbəşistana hicrət etmiş, peyğəmbər (s) onunla kral Nəcaşiyə məktub göndərmiş, onu mühacirlərə başçı və krala elçi tə'yin etmişdi. İki dəfə hicrət etmişdir. Xeybərin fəthi günü həbəşistandan Mədinəyə gəlmişdir. Peyğəmbər (s) onu qucaqlayıb[17], alnından öpüb və: *"Bilmirəm, Cə'fərin gəlişi, yoxsa Xeybərin fəthi səbəbi ilə daha çox sevinməliyəm"* – demişdir.

Ləqəbi Əbu Abdullah ət-Təyyardır (Qanadlı Cə'fər). Bu ləqəbi hicrətin 8-ci ilində 41 yaşında ikən şəhid olduğu Muta döyüşündə almışdır. Bu döyüş zamanı Zeyd bin Haris öldürüldükdən sonra Peyğəmbərin (s) dediyi kimi, sərkərdə oldu və bayrağı götürdü. Döyüş zamanı əllərini itirmiş və şəhid olmuş Cə'fər (r) haqqında Rəsulullah (s): *"Qolları kəsildi, ancaq Allah onların əvəzinə iki qanad verdi, Cənnətdə uçur"* – müjdəsini verdi. Bədəninin 10 hissəsində 70-dən artıq yara aldığı qeyd olunur[18].

---

[17] "Məcmə' əz-Zəvaid", 9/271-272.

[18] "əl-Bidayə və ən-Nihayə", 4/285; "Cərh və tə'dil", 2/482.

Əbu Hureyrə (r) Cə'fərin (r) kasıblara qarşı münasibətinə, əliaçıqlığına görə ona Əbu Məsakin (kasıbların atası) ləqəbini vermişdir.

Rəsulullah (s) demişdir: *"Məndən əvvəl hər peyğəmbərə yeddi seçilmiş vəzir verilmişdir. Mənə on dörd vəzir verildi: Həmzə, Cə'fər, Əli, Həsən, Hüseyn, Əbu Bəkr, Ömər, Miqdad, Huzeyfə, Səlman, Ammar və Bilal"*. Rəsulullah (s) Cə'fərin ölümünə üzülmüş, gözlərinin yaşını axıtmışdır. Aişə (r) deyir ki, "Cə'fərin ölüm xəbəri gəldikdə Rəsulullahın kədərləndiyini gördük".

**Həsən və Hüseynin (r) fəziləti**

1. Əl-Bəra (r) belə rəvayət edir: "Mən peyğəmbərin (s) Əlinin oğlu Həsəni çiyninə alıb: *"Allahım, mən bunu sevirəm, bunu Sən də sev!"* – buyurduğunu gördüm." (Buxari; "Kitabul-fadail-əshab", 24/89; Müslim, "Fadail-səhabə", 58-59 (2422); ət-Tirmizi, "Mənaqib", 3784).

2. Üsamə bin Zeyddən (r) rəvayət olunur ki, "Peyğəmbər Üsaməni Həsənlə bərabər qucağına alıb: *"Allahım, mən bunları sevirəm, Sən də bunları sev"*, yaxud buna oxşar bir söz deyərdi" (Buxari, "Kitabul-fadail əshab", 24/87).

3. Rəsulullah (s) Həsən və Hüseynə baxıb: *"Allahım mən bunları sevirəm, sən də sev!"* – deyərdi. (Tirmizi; "Mənaqib", 3784).

4. Uqbə bin əl-Haris (r) belə demişdir: "Əbu Bəkr (r) ikindi (əsr) namazını qıldı, sonra Əli (r) ilə getdi. Yolda o,

Həsəni uşaqlarla oynayan görüb onu çiyninə aldı və ona: "Peyğəmbərə oxşayan, Əliyə oxşamayan, atam sənə fəda olsun" – dedi. Əli isə güldü" (Buxari, "Kitabul-fadail əshab", 24/90).

5. Ənəs (r) rəvayət edir ki, "Bir kimsə Rəsulullahdan (s) Əhli-beytindən kimi daha çox sevdiyini soruşanda, o (s): *"Həsən və Hüseyni"* – deyərdi. Rəsulullah (s) Fatiməyə: *"Mənim oğullarımı çağır"* – deyər, onları qucaqlayar və öpüb ətirlərini duyardı" (ət-Tirmizi, "Mənaqib", 3774).

6. Yə'la bin Murrəh (r) Rəsulullahın (s) belə dediyini rəvayət edir: *"Hüseyn məndəndir, mən də Hüseyndənəm. Allah Hüseyni sevəni sevər. Hüseyn "Əsbat"dan biridir"* (ət-Tirmizi, "Mənaqib", 3774; İbn Macə, "Muqəddimə", 144). Hədisdəki "əsbat" sözü 3 mə'na verir: nəvə, qəbilə, ümmət.

7. Əbu Səid (r) Rəsulullahın (s) belə dediyini rəvayət edir: *"Həsən və Hüseyn Cənnət əhlinin iki gəncidir"* (ət-Tirmizi, "Mənaqib", 3778).

8. Abdullah bin Şəddad (r) atasından (r) rəvayət edir ki, Rəsulullah (s) iki axşam namazından (məğrib və ya i'şa) birində yanımıza gəldi. Həsən və Hüseyn onun belində idi. Peyğəmbər (s) qabağa keçib uşağı yerə qoydu, təkbir edib namaza başladı. Namaz vaxtı onun səcdəsi çox uzun çəkdi". Atam deyir ki: "Səcdə uzun çəkdiyi üçün başımı qaldırıb baxdım. Gördüm ki, səcdədə olan peyğəmbərin belində uşaq oturub və mən tez səcdə halıma qayıtdım. Namaz qurtaranda səhabələr Rəsulullahdan (s) soruşdular: "Ey Allahın Rəsulu! Namaz vaxtı elə uzun

səcdə etdin ki, bir hadisə baş verdiyini və ya sənə vəhy endiyini zənn etdik!" Peyğəmbər cavab verdi ki: *"Xeyr, bunlardan heç biri olmadı. Lakin, oğlum belimə mindi. Mən özü düşənə qədər onu düşürməyi uyğun bilmədim"* (ən-Nəsai, "İftitah", 83 (2, 229, 320)).

9. Ənsardan Səlma adlı bir qadın rəvayət edir ki, "Ummu Sələmənin (r) yanına girdikdə gördüm ki, ağlayır. Soruşdum ki, niyə ağlayırsan? Cavab verdi ki: "İndicə Rəsulullahı (s) başı və saqqalı torpaqlı halda yuxumda gördüm. "Sənə nə olub, ya Rəsulullah?" – deyə soruşdum. O, dedi: "Bir az əvvəl Hüseynin öldürüldüyünün şahidi oldum" (ət-Tirmizi, "Mənaqib", 3774).

10. Ənəs bin Malik (r) rəvayət edir ki, "Hüseynin (r) başı gətirildiyi zaman Übeydullah bin Ziyadə əlindəki süngü ilə kəllənin burnuna, gözlərinə vuraraq: "Bu qədər gözəlini görmədim" – dedi. Mən də: "O, Əhli-beyt içində Rəsulullaha (s) ən çox oxşayan şəxs idi" – dedim. (Buxari, "Kitabul-fadail əshab", 24/88, ət-Tirmizi, "Mənaqib", 3780).

Übeydullah bin Ziyad bin Əbu Sufyan – Müaviyənin oğlu Yezidin xəlifəliyi dövründə Kufə valisi idi. Hüseyn bu dövrdə şəhid edilmişdi.

11. Ammar bin Uməyr (r) rəvayət edir ki, "Übeydullah bin Ziyad və yoldaşlarının kəlləsini Kufəyə gətirəndə Rahəbə məscidində çoxlu adam toplaşmışdı. Mən də onlara yaxınlaşdım. "Gəldi! Gəldi!" – deyirdilər. Gələn nə idi? – marağı ilə bir az da onlara yaxınlaşdım. Bir ilan

kəllələr arasına girib yox olur, təkrar çıxırdı. İlan Übeydullah bin Ziyadın burun deşiyinə girdi və bir qədər qaldı. Sonra çıxıb getdi və qeyb oldu. Bir az sonra "Yenə gəldi! Yenə gəldi!" deyərək camaat qışqırdı. Bu hal 2 və ya 3 dəfə təkrarlandı" (ət-Tirmizi, "Mənaqib", 3782).

12. Əbu Musa (r) Həsən əl-Bəsridən (r) Əbu Bəkrin (r) belə dediyini eşitdiyini rəvayət edilir: "Mən peyğəmbərin (s) minbərdən bir dəfə insanlara, bir dəfə də yanındakı nəvəsi Həsənə (r) baxaraq belə dediyini eşitdim: *"Mənim bu oğlum seyyiddir. Allah onun əli ilə iki müsəlman kütləni barışdıracaq"* (Buxari, "Kitabul-fadail əshab", 24/86).

13. Ənəs bin Malik (r) demişdir: "Heç kim Həsən bin Əli (r) kimi peyğəmbərə (s) çox oxşamırdı" (Buxari, "Kitabul-fadail əshab", 24/92).

14. Şu'bə, Məhəmməd bin Yaqubdan rəvayət edir ki, "Mən İbn Əbu Nu'mdan Abdullah bin Ömərin ona belə dediyini eşitdim: "İraq əhlindən bir adam məndən öldürülmüş milçəyin hökmü haqqında soruşanda cavab verdim ki: "İraq əhalisi milçəyin öldürülməsi haqqında soruşur. Halbuki onlar peyğəmbərin (s) qızının oğlunu (Hüseyni) öldürmüşdülər. Peyğəmbər (s) isə o iki nəvəsi haqqında: *"Onlar mənim dünyada* (ətrini duyduğum) *iki reyhanımdır"* – demişdir." (Buxari, "Kitabul-fadail əshab", 24/93).

Bu hədislər Həsən və Hüseynin (r) fəzilətinə nümunədir. Həsən və Hüseyn (r) peyğəmbərin (s) Əli və Fatimədən (r) olan nəvələridir.

Həsən (r) hicrətin 3-cü ili Ramazan ayında Mədinədə anadan olmuşdur. Peyğəmbərə (s) çox oxşayan həlim xasiyyətli və yüksək dərəcəli təqva sahibi olan Həsən (r) hərtərəfli müsbət xüsusiyyətlərə malik olub, var-dövlətə və dünyaya bağlı deyildi. Atasının ölümündən sonra xəlifə Müaviyənin (r) ordusu ilə ona bağlı olan əsgərlərdən ibarət iki ordu qarşılaşdı. O, qan töküləcəyi anda Müaviyə (r) ilə danışıqlar apararaq, bir ovuc qan hesabına belə olsa Məhəmmədin ümmətinə xəlifə olmaq istəmirəm deyərək xilafəti ona vermiş, və beləliklə müsəlmanlar arasında qan tökülməsinin qarşısını almışdır.

49, 50 və ya 51 yaşında arvadı tərəfindən zəhərləndirilərək vəfat etmişdir.

Hüseyn (r) hicrətin 4-cü ilində Şaban ayında anadan olmuş, 61 yaşında Kərbəla adlanan yerdə Məhərrəm ayının 10-da şəhid olmuşdur.

Ümumiyyətlə istər Həsənin, istərsə də Hüseynin xəlifəliyi dövründə və daha sonralar xilafətdə fitnələr gündən-günə çoxalırdı. İslam tarixində bu hadisələr haqqında dəqiq mə'lumat göstərilməyib. Müxtəlif müəlliflər müxtəlif rəvayətlər edirlər. Daha ətraflı mə'lumat üçün "Tarix-Təbəri" kitabına müraciət etmək olar.

Hüseynin (r) şəhid edilməsinin tarixi haqqında mövcud rəvayətlərdən biri belədir:

Müaviyə (r) oğlu Yezidi xəlifə tə'yin edərək öləndən sonra, Kufə əhalisi Hüseynə (r) məktub yazaraq onu xəlifə görmək istədiklərini və ona itaət edəcəklərini

bildirdilər. Hüseyn (r) Müaviyə oğlu Yezidə bi’ət etmir və Məkkəyə gəlir. Kufəlilərin məktubunu Məkkədə alır və Kufəyə yollanmaq üçün hazırlaşır. Dövrün böyük səhabələrindən olan Ömərin oğlu Abdullah, Abbasın oğlu Abdullah və qardaşı Məhəmməd bin Hanəfiyyə (Əlinin (r) digər arvadından olan oğlu) kimi bir çox hörmətli adamlar ona Kufəyə getməməsini tövsiyyə edirlər. Lakin Hüseyn (r) yolundan qalmır. Yezid Kufəyə Ubeydulla bin Ziyadı vali tə’yin edər və Hüseyni (r) qarşılamaq üçün qoşun hazırlayır. Qoşuna Ömər bin Sə’d bin Əbu Vaqqas başçılıq edir. Məqsəd heç də Hüseyni (r) və onunla olanları öldürmək olmasa da, bu qarşıdurma 72 nəfərin, o cümlədən Hüseyn (r) və 19 nəfər əhli-beyt adamlarının şəhid olması ilə nəticələnir.

Hüseynin (r) kəsilmiş başını təhqir edən Ubeydullah bin Ziyadı, Allah İbrahim bin əl-Əştər adlı şəxsin əli ilə öldürür. İbrahimi Muxtar bin Əbu Ubeydə əs-Saqafi göndərir. Ubeydullahın və yoldaşlarının kəsilmiş kəllələrini gətirərkən nazik bir ilanın kəllələrin burun və ağız deşiklərindən girib-çıxması rəvayət olunur. Doğrusunu Allah bilir.

## Fatimənin (r) fəziləti

1. Cəmi' bin ət-Teymiyyi rəvayət edir ki, "Xalamla birlikdə Aişənin (r) yanına getmişdim. Soruşdum ki, peyğəmbər hansı qadını daha çox sevirdi. "Fatiməni" – deyə cavab verdi. "Bəs kişilərdən kimi?" – deyə soruşduqda: "Fatimənin ərini! Bildiyimə görə o çox oruc tutur, çox namaz qılır" – dedi. (ət-Tirmizi, "Mənaqib", 3873).

2. Ummu Sələmə (r) rəvayət edir ki, "Fəth ilində Rəsulullah (s) Fatiməni (r) çağıraraq onunla xüsusi söhbətləşdi. Fatimə (r) ağladı. Təkrar söhbət etdilər, bu dəfə Fatimə (r) güldü. Rəsulullah (s) vəfat etdikdə Fatimədən ağlamağının və gülməyinin səbəbini soruşduqda, dedi: "Əvvəlcə Rəsulullah (s) mənə öləcəyini xəbər verdi, ağladım. Daha sonra məni Məryəm bint İmrandan başqa bütün Cənnət qadınlarının seyyidi (xanımı) olacağım ilə müjdələdi. Buna görə güldüm" (ət-Tirmizi, "Mənaqib", 3872).

3. Misvər bin Məxrəmə Rəsulullahın (s) belə dediyini rəvayət edir: *"Fatimə məndən bir parçadır. Kim onu qəzəbləndirsə məni qəzəbləndirmiş olar"* (Buxari, "Kitabul-fadail əshab", 12/61, 31/107).

4. Aişədən (r) rəvayət olunur ki, "Peyğəmbər vəfatından əvvəl xəstələndiyi zaman Fatiməni (r) yanına çağırdı və ona gizli bir şey dedi. Fatimə ağladı. Sonra bir daha çağırıb Fatiməyə yenə gizli bir şey dedi. Bu dəfə Fatimə güldü. Fatimədən bu ağlama və gülmənin səbəbini soruşduqda, Fatimə: "Peyğəmbər (s) mənə gizlincə bu xəstələyinin sonunda ruhunun alınacağını xəbər verdi.

Buna görə ağladım. Sonra mənə yenə gizlincə, mənim onun Əhli-beytindən ona ilk çatan insan olacağımı və ondan sonra gələcəyimi xəbər verdi. Buna görə də güldüm" – dedi". (Buxari, "Kitabul-fadail əshab", 12/62).

Rəsulullah (s) qızlarından Fatiməni (r) daha çox sevirdi. Bu səbəbdən hətta Əliyə (r) Fatimə (r) ilə eyni zamanda başqasıyla evlənməyə icazə verməmişdir.

5. Misvər bin Məxrəmə peyğəmbərin (s) belə dediyini rəvayət edir: "Haşim bin Muğirə oğulları qızlarını Əli bin Əbu Talibə vermək üçün məndən izin istədilər. *"Mən izin vermirəm! İzin vermirəm! İzin vermirəm! Əgər Əbu Talibin oğlu istəsə qızımı boşasın, sonra onların qızları ilə evlənsin. Çünki Fatimə məndən bir parçadır. Onu incidən şey məni də incidir, ona əziyyət verən şey mənə də əziyyət verir"* – dedim" (Buxari, "Kitabun-nikah", 110/159).

**Xədicə bint Xuveylidin (r) fəziləti**

1. Əbu Hureyrə (r) rəvayət edir ki, "Cəbrayıl (Ona salam olsun!) Rəsulullahın (s) yanına gələrək: "Ey Allahın Rəsulu! Xədicə içində qatıq, və yaxud yeyiləcək və ya içiləcək başqa bir şey olan qabla gəlir. O, yanına çatanda ona Rəbbindən salam söylə və onu təm-təraqlı və yorğunluq olmayan, incidən hazırlanmış bir evlə müjdələ". (Buxari, "Kitabul-mənaqibul-ənsar", 19, "Kitabut-tövhid", 33/110; Müslim, "Fadailus-səhabə", 71/2432).

Bu hədisə görə bə'zi alimlər Xədicənin (r) Aişədən daha fəzilətli olması hökmünü vermişlər. Çünki Aişəni (r) Cəbrayıl (Allahın ona salamı olsun!) öz adından salamlamışsa, Xədicəni (r) Rəbbinin adından salamlamışdır.

2. Aişə (r) rəvayət edir ki, "Mən Peyğəmbəri (s) arvadlarından heç birinə Xədicə qədər çox qısqanmadım. Halbuki mən Xədicəni dərk edəcək yaşımda görməmişdim. Fəqət Peyğəmbər (s) onu çox xatırlayırdı, hər dəfə qoyun kəsəndə Xədicənin dostlarına göndərirdi. Bə'zən mən: "Sanki Xədicədən başqa bu dünyada qadın yoxdur" – deyərdim. Rəsulullah (s) da: *"Xədicə belə idi, Xədicə belə idi və ondan mənim övladlarım oldu"* – deyərdi". (Buxari, "Kitabul-mənaqibul ənsar", 19/43; Müslim, "Fadailus-səhabə", 73, 74, 77, 78 (2434, 2435, 2436, 2437); ət-Tirmizi, "Mənaqib", 3885, 3886).

Əhməd bin Hənbəlin bir rəvayətində peyğəmbərin (s) belə dediyi rəvayət olunur: *"İnsanlar mənim risaləmi inkar edərkən, o inandı, hamı məni təkzib edəndə, o malını mənim üçün xərclədi. Allah onunla mənə uşaq nəsib etdi, ancaq digər arvadlarımdan uşağım olmadı".*

3. Həzrət Əli (r) Peyğəmbərin (s) belə dediyini rəvayət etmişdir: *"Dövrünün ən xeyirli qadını İmranın qızı Məryəmdir, bu ümmətin ən xeyirli qadını Xuveylidin qızı Xədicədir"* (Buxari, "Kitabus-səhabə", 69/2430; ət-Tirmizi, "Mənaqib", 3887).

4. Əbu Musa əl-Əş'ari (r) Peyğəmbərin (s) belə dediyini rəvayət edir: *"Kişilərin çoxu kamala çatmışdır. Qadınlardan isə*

*İmranın qızı Məryəm, Fir'onun arvadı Asiya, Xuveylidin qızı Xədicə və Məhəmmədin qızı Fatimədən başqa heç kim kamala çatmadı. Aişənin qadınlardan üstünlüyü, sərid yeməyinin digər yeməklərdən üstünlüyü kimidir"* (Buxari, "Kitabul-ənbiya", 48/105; Müslim, "Fadailus-səhabə", 70 (2431); ət-Tirmizi, "Ət'imə", 31/1835).

Xədicə (r) Xuveylid bin Əsədin qızı olub, peyğəmbərlə (s) eyni nəsildəndirlər. Arvadları içərisində peyğəmbərə nəsəbi ən yaxın olan Xədicədir. İbrahimdən başqa digər övladlarının (Qasim, Zeynəb, Ruqiyyə, Gülsüm,Fatimə və Abdullah) anası Xədicə olub. Hicrətdən 3 il əvvəl, Əbu Talibdən 3 gün sonra 65 yaşında ramazan ayında vəfat etmişdir.

## Aişənin (r) fəziləti

1. Aişə (r) rəvayət edir ki, "Peyğəmbər (s) mənə: *"Ey Aişə! Bu Cəbraildir. Sənə salam deyir!"* – dedi. Mən də: "Ona da Allahın salamı, rəhməti və bərəkəti olsun!" – dedim. Çünki, Rəsulullah (s) mənim görmədiyimi görürdü". (Buxari, "Kitabul-fadail əshab", 32/109; Müslim, "Fadailus-səhabə", 91/2447; Əbu Davud, "Ədəb", 166/5232; ət-Tirmizi, "Mənaqib", 3876; ən-Nəsai, "İşretun-nisa", 3/7, 69).

2. Əbu Musa (r) rəvayət edir ki, "Biz, peyğəmbərin (s) səhabələri hədislərin mə'nalarını başa düşməkdə

çətinliklərlə qarşılaşdıqda Aişəyə müraciət edərdik ki, ondan elm öyrənək" (ət-Tirmizi, "Mənaqib", 3877).

3. Əbu Vail rəvayət edir ki, "Əli (r) əsgər toplamaq üçün Ammar bin Yasir və oğlu Həsəni Kufəyə göndərəndə Ammar xütbə edib dedi: "Qəti surətdə bilirəm ki, o, dünyada və axirətdə peyğəmbərin arvadıdır. Lakin Allah sizi Öz hökmünə (İmama itaət edəcəyiniz), yoxsa Aişəyə tabe olacağınız ilə imtahana çəkir" (Buxari, "Kitabul-fadail əshab", 32/112).

Bu rəvayət Cəməl (Dəvə) döyüşü ərəfəsində Əli (r) və Aişə (r) qarşıdurması ilə əlaqədar söylənilmişdir.

Əslində bu qarşıdurma düşmənçilikdən deyil, Aişədən başqa sağlığında Cənnətlə müjdələnmiş Təlha və Zubeyr kimi böyük səhabələrin, Osmanın (r) qatillərinin tapılması və qisasının alınması tələbindən yaranmışdı. Həm Əli (r), həm də Aişə (r) İslam dünyası üçün xeyir istəyirdilər.

4. Abdullah bin Abdurrəhman, Ənəs bin Malikdən (r) belə eşitdiyini rəvayət edir: "Mən Rəsulullahdan (s) eşitdim ki: *"Aişənin digər qadınlardan üstünlüyü sərid aşının digər yeməklərdən üstünlüyü kimidir"* (Buxari, "Kitabul-fadail əshab", 32/110).

5. İbn Aun əl-Qasim bin Məhəmməddən rəvayət edir ki: "Aişə (r) xəstələnmişdi. Abdullah bin Abbas (r) onu ziyarət etməyə gəldi və: "Ey mö'minlərin anası, sən Rəsulullah (s) və Əbu Bəkrin (r) səndən əvvəl Cənnətə girib hazırladıqları gözəl bir məqama gedəcəksən" – dedi. (Buxari, "Kitabul-fadail əshab", 32/111).

Abdullah bin Abbas (r) dövrünün ən elmli şəxsiyyəti idi və şübhəsiz ki, Aişəyə (r) dediyi sözləri o, peyğəmbərdən (s) eşidib.

6. Aişədən (r) rəvayət edilir ki, o, bacısı Əsmadan bir boyunbağı almışdı. Bu boyunbağı səfər zamanı itdi. Rəsulullah (s) səhabələrindən bə'zilərini, o cümlədən Useyd ibn Hüdeyri də həmin boyunbağını axtarmağa göndərdi. Onlar namazın vaxtı olduğuna və su tapmadıqlarına görə dəstəmazsız namaz qılmalı oldular. Peyğəmbərin (s) yanına gələndə vəziyyəti ona deyərkən təyəmmüm ayəsi (əl-Maidə, 6) nazil oldu. Bu zaman Useyd bin Hudeyr Aişəyə: "Allah səni xeyirlə mükafatlandırsın. Vallahi sənin başına gələcək elə bir iş yoxdur ki, onda Allahdan sənin özün və müsəlmanlar üçün bir xeyir olmasın" dedi" (Buxari, "Kitabul-fadail əshab", 32/113).

Rəvayətin başqa variantları Buxarinin "Təyəmmüm kitabı"nda 1-ci və 3-cü hədislərdə verilmişdir.

Həqiqətən Aişənin boyunbağısının itməsi müsəlmanlar üçün bir rəhmət olan təyəmmüm ayəsinin nazil olmasına səbəb olmuşdur. Təyəmmüm ayələri «əl-Maidə» surəsinin 6-cı və «ən-Nisa» surəsinin 43-cü ayələridir.

7. Urva bin əz-Zubeyr belə demişdir: "İnsanlar hədiyyələri Peyğəmbərə (s) Aişənin yanında olarkən verməyə çalışırdılar. Aişə rəvayət edir ki: "Qadın yoldaşlarım bundan qısqandıqda Ummu Sələmənin yanına toplaşdılar və: "Ey Ummu Sələmə, bilirsən ki, adamlar hədiyyələrini Peyğəmbərə Aişənin evində

verməyə çalışırlar. Halbuki biz də Aişə kimi xeyir istəyirik. Nə olar, Rəsulullaha de, o insanlara hədiyyələrini hansı arvadının evində olsa orda verməyi tapşırsın" – dedilər. Ummu Sələmə bunu Peyğəmbərə (s) xatırlatdı. Ummu Sələmə dedi: "Mən bunu Peyğəmbərə xatırlatdım. O məndən üz çevirdi. Növbəti dəfə də xatırlatdım. O məndən üz çevirdi. Üçüncü dəfə də xatırlatdıqda o, mənə: *"Ey Ummu Sələmə, Aişə barədə mənə əziyyət vermə. Bu bir həqiqətdir ki, Aişədən başqa sizdən heç bir qadının yanında olduğum zaman mənə vəhy nazil olmadı"* – buyurdu" (Buxari, "Kitabul-fadail əshab", 32/115, "Kitabul-Hibə", 6/15,16).

Bu hədislər Aişənin (r) fəziləti üçün kifayət qədər dəlildir.

Qeyd etmək lazımdır ki, «ən-Nur» surəsinin 11-20-ci ayələri, Aişəyə (r) səfər zamanı itirdiyi boyunbağını axtarması ilə əlaqədər yaxılmış iftiralara cavabdır:

إِنَّ الَّذِينَ جَاءُوا بِالْإِفْكِ عُصْبَةٌ مِنْكُمْ ۚ لَا تَحْسَبُوهُ شَرًّا لَكُمْ بَلْ هُوَ خَيْرٌ
لَكُمْ ۚ لِكُلِّ امْرِئٍ مِنْهُمْ مَا اكْتَسَبَ مِنَ الْإِثْمِ ۚ وَالَّذِي تَوَلَّىٰ كِبْرَهُ مِنْهُمْ
لَهُ عَذَابٌ عَظِيمٌ ﴿١١﴾ لَوْلَا إِذْ سَمِعْتُمُوهُ ظَنَّ الْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ
بِأَنْفُسِهِمْ خَيْرًا وَقَالُوا هَٰذَا إِفْكٌ مُبِينٌ ﴿١٢﴾ لَوْلَا جَاءُوا عَلَيْهِ بِأَرْبَعَةِ
شُهَدَاءَ ۚ فَإِذْ لَمْ يَأْتُوا بِالشُّهَدَاءِ فَأُولَٰئِكَ عِنْدَ اللَّهِ هُمُ الْكَاذِبُونَ ﴿١٣﴾

وَلَوْلَا فَضْلُ اللّٰهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ فِي الدُّنْيَا وَالْاٰخِرَةِ لَمَسَّكُمْ فِي مَا
اَفَضْتُمْ فِيهِ عَذَابٌ عَظِيمٌ ﴿١٤﴾ اِذْ تَلَقَّوْنَهُ بِاَلْسِنَتِكُمْ وَتَقُولُونَ
بِاَفْوَاهِكُمْ مَا لَيْسَ لَكُمْ بِهِ عِلْمٌ وَتَحْسَبُونَهُ هَيِّنًا وَهُوَ عِنْدَ اللّٰهِ
عَظِيمٌ ﴿١٥﴾ وَلَوْلَا اِذْ سَمِعْتُمُوهُ قُلْتُمْ مَا يَكُونُ لَنَا اَنْ نَتَكَلَّمَ بِهٰذَا
سُبْحَانَكَ هٰذَا بُهْتَانٌ عَظِيمٌ ﴿١٦﴾ يَعِظُكُمُ اللّٰهُ اَنْ تَعُودُوا لِمِثْلِهِ اَبَدًا اِنْ
كُنْتُمْ مُؤْمِنِينَ ﴿١٧﴾ وَيُبَيِّنُ اللّٰهُ لَكُمُ الْاٰيَاتِ وَاللّٰهُ عَلِيمٌ حَكِيمٌ ﴿١٨﴾

اِنَّ الَّذِينَ يُحِبُّونَ اَنْ تَشِيعَ الْفَاحِشَةُ فِي الَّذِينَ اٰمَنُوا لَهُمْ عَذَابٌ اَلِيمٌ
فِي الدُّنْيَا وَالْاٰخِرَةِ وَاللّٰهُ يَعْلَمُ وَاَنْتُمْ لَا تَعْلَمُونَ ﴿١٩﴾ وَلَوْلَا فَضْلُ اللّٰهِ
عَلَيْكُمْ وَرَحْمَتُهُ وَاَنَّ اللّٰهَ رَؤُفٌ رَحِيمٌ ﴿٢٠﴾

"**Həqiqətən,** (Aişə barəsində) **yalan xəbər gətirənlər öz içərinizdə olan bir zümrədir** (münafiqlərdir)**. Onu** (o xəbəri) **pis bir şey zənn etməyin. O, bəlkə də, sizin üçün xeyirlidir. O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. Onlardan günahın böyüyünü öz üstünə götürəni** (Abdullah bin Ubeyyi) **isə** (qiyamət günü) **çox böyük** (şiddətli) **bir əzab gözləyir. Məgər o**

**yalan sözü eşitdiyiniz zaman mö'min kişilər və qadınlar öz ürəklərində** (özləri haqqında yaxşı fikirdə olduqları kimi, dostlarının da əhli-əyalı barəsində) **yaxşı fikirdə olub: "Bu, açıq-aydın bir böhtandır!" – deməli deyildirlərmi?** (Aişəyə iftira yaxanlar) **nə üçün özlərinin doğru olduqlarını təsdiq edəcək dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsl yalançıdırlar! Əgər Allahın dünyada və axirətdə sizə ne'məti və mərhəməti olmasaydı, o yalan sözünüzə görə sizə şiddətli bir əzab toxunardı. O zaman ki, siz** (münafiqlərin yaydığı) **yalanı dilinizə gətirir, bilmədiyniz sözü ağzınıza alır və onu yüngül (**asan, insana günah gətirməyən) **bir şey sanırsınız. Halbuki bu** (peyğəmbərin əhli-əyalı haqqında nalayiq söz danışmaq) **Allah yanında çox böyük günahdır! Məgər siz onu eşitdiyiniz zaman: "Bizə bunu** (bu yalanı) **danışmaq yaraşmaz. Aman** (AllaH)**! Bu, çox böyük bir böhtandır!" – deməli deyildinizmi? Allah sizə öyüd nəsihət verir ki, əgər mö'minsinizsə, bir daha belə şeylər etməyəsiniz. Və Allah sizin üçün ayələrini** (belə ətraflı, açıq-aydın) **izah edir. Allah** (hər şeyi) **biləndir və hikmət sahibidir. Mö'minlər arasında** (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) **pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir.** (Hamının əməlini, yayılan şayələrin, atılan böhtanların doğru olub-olmadığını) **ancaq Allah bilir, siz bilməzsiniz! Əgər Allahın sizə ne'məti və mərhəməti olmasaydı, Allah şəfqətli və rəhmli olmasaydı,** (halınız necə olardı)**?**

(Dediyiniz yalanlara, yaxdığınız iftiralara görə sizi dərhal məhv edərdi")

(«ən-Nur» 11-20).

**Mahmud Qəhrəmanov**

**www.azerislam.com**
**PDFləşdirən:**
**www.kitablar.com**
**www.kitablar.org/**